*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   29 aprel 2017-ci il   № 32 (2149)   Qiymətı 25 qəpik


# Vətən qorunur!



*Hava günəşli olduğu üçün o qədər də soyuq deyildi. Dağların bir üzü yenicə yaşıllaşmağa başlayan ağaclarla, digər üzü isə günorta saatlarında günəş şüasının dəyib əridə bilmədiyi qarla örtülmüşdü. Uzaqdan baxanda sanki bir tərəfdə çiçək açmış baharı, digər tərəfdə isə qarlı-şaxtalı qışı görürsən. Ağacların sıx kölgə saldığı cığırla döyüş postuna çatırıq.*

Bizi zabit Roman Abıyev qarşılayır. Uşaq yaşlarından Vətən sevgisi, hərb sənətinə marağı leytenant Roman Abıyevin hərbçi kimi yetişməsinə səbəb olub. Atası Qalib kişi də, anası Nəzakət xanım da, zabit dostu Nurlandan stimul alıb hərb yolunu seçən gəncə xeyir-dua verərək torpaqlarımız uğrunda son qanına qədər döyüşməyi tapşırıblar.

Roman Salyanda Yusif Qasımov adına 4 saylı orta məktəbi bitirib. 2009-2012-ci illərdə C.Naxçıvanski adına Hərbi Liseydə, sonra isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində motoatıcı ixtisası üzrə hərbi təhsil alıb. Sonra gənc zabit ön xətdə yerləşən hərbi hissəyə taqım komandiri təyin edilib. Hərbi təhsil aldığı illərdə ciddiyyəti, savadı və tələbkarlığı ilə seçilən Roman yoldaşları arasında xüsusi hörmətə malik olub.

Həmsöhbət olduğumuz zaman, özünün də fəxrlə vurğuladığı kimi, uşaq yaşlarından anası Nəzakət xanımın Qarabağ həsrətli laylaları, atası Qalib kişinin düşmənə nifrəti, müəllimləsi Simuzər xanımın aşıladığı Vətən sevgisi onun həyat amalını müəyyənləşdirib. Motoatıcı ixtisasını dərindən öyrənməsində isə hərbi təhsil müəssisələrindəki müəllimlərinin böyük əməyi olub. Gənc zabit dedi ki, Vətən uğrunda canından keçən şəhidlər onun üçün həyat dərsi, təcrübəli zabitlər isə örnək olan qüvvədir.

Leytenant Roman Abıyev indi əsgərləri üçün təcrübəli komandirdir. Onlar arasında mehribanlıq, səmimiyyət və qorxmaz mühit yaradan zabit hər an döyüşə hazır bir taqım formalaşdırıb. Tabeliyindəki şəxsi heyətlə daim söhbətlər aparır, onların qayğısına qalır, bacardığı qədər bütün problemləri həll etməyə çalışır. Roman Abıyev hər şeydən əvvəl Vətənini sevən oğul, düşməni qorxuya salan zabitdir.

Şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinə cavabdeh zabitlərdən olan Rüstəm Məmmədov söhbətində Romanın xarakterinin incəliklərindən danışarkən onu "Qorxmaz Vətən oğlu" adlandırdı. Burada bütün zabitlər Romanın tələbkarlığından, nizam-intizamlı və döyüşə hazır şəxsi heyət yetişdirməsindən söz açmağı özlərinə borc bilirlər.

- Əsgərlərin qorxmazlığında, silah-texnikaya bələd olmasında, döyüş hazırlığında gənc komandirin misilsiz əməyi var. Bu gün döyüş postunda xidmət edən əsgərlər Rauf Rüstəmzadə, Famil Əliyev, Elmin Nadirşahov, Elşad Əliyev və başqalarının döyüş bacarığına yiyələnməsində əməyi olması onun komandir nüfuzu qazanmasının əyani sübutudur, - deyə təcrübəli zabit vurğuladı.

Onu da deyək ki, Roman üç il idmanla məşğul olub. Güləşlə məşğul olduğu illərdə rayon və respublika səviyyəsində keçirilən yarışlarda bir neçə dəfə fəxri pilləyə yüksəlib. Həyatındakı uğurlarına idman döyüşlərindən başlayan zabit zəfərə gedən yoluna Vətən uğrunda döyüşlərlə davam etmək niyyətindədir.

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın perspektivləri müzakirə olunub

*Aprelin 27-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Jandarma Baş Komandanı, ordu generalı Yaşar Gürelin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*



General-polkovnik Zakir Həsənov Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın daim inkişaf etdiyini, strateji tərəfdaşlıq və qardaşlıq münasibətləri əsasında qurulduğunu və əlaqələrimizin davamlı olduğunu vurğulayıb.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan general-polkovnik Zakir Həsənov bildirib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regional sabitliyə ciddi təhdiddir. Bu problemin tezliklə beynəlxalq hüququn normaları və prinsipləri çərçivəsində həlli vacibdir.

Ölkəmizə səfərindən məmnunluğunu ifadə edən ordu generalı Y.Gürel dövlətlərimizin əlaqələrinin qədim tarixi köklərə, mehriban dostluq ənənələrinə əsaslandığını və Türkiyənin Azərbaycanın vacib tərəfdaşı olduğunu vurğulayıb.

Sonra Azərbaycan və Türkiyə hərbi qurumları arasında əlaqələrin inkişaf perspektivləri, hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlıq imkanları, birgə planlaların işlənilməsi, təlimlərin keçirilməsi, qarşılıqlı səfərlərin təşkili, o cümlədən maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**foto**
**Natiq İSAYEVİNDİR**

*Medallı igidlərimiz*

# Xəlqi ruh yaşadılır!..

(esse)



XV əsrin son illəri...

Səfəvilər döyüş-döyüş tarix yazır...

Dünya Səfəviləri tanımaqdadı...

Dünya Səfəvilərlə hesablaşmaqdadı...

Şah İsmayıl Xətainin qılıncı sıyrılanda səngər tanımayan qızılbaşlar düşmənlərini, düşmən bildiklərini, düşmənçiliyə meyillənənləri qılınca yalmandırır, qızılbaşların qılıncı boyunlar vurur, qollar üzür, gözlər tökür...

1499-cu il...

Döyüş başa çatıb. Dağların, sərt qayaların, mərd qayaların sinəsinin qanını silə-silə axan çayın qızartısı azalmaqdadı. Kimi göy otluğa dirsəklənib dincini alır, kimi kəhərini tumarlayır, kimi qılıncını ovxarlayır, kimi yaralı qızılbaşın yaralarını sarıyır...

Şah İsmayıl Xətai dikdirdə qaya misallı daşa mətərislənib. Atasını - Şeyx Heydəri xatırlayır. Bu xatırlamada kövrəklik də var, şükranlıq da. Qəlbində çözülməsi mümkün olmayan bir gizilti gəzişir. Baxışları göy üzünün göylüyünü qanadlarıyla sığallayan qartalın uçuşundan üzülmür...

Qızılbaşlara baxır. Ürəyindən lələk qələmlə torpaq üçün qılınc çalanların hünərini şeirləşdirmək keçir...

Ustaclı Məhəmməd Şah İsmayıla nəsə demək istəyir. Şahın üzülə-üzülə düzülən, düzülə-düzülə üzülən xəyallarının nizamını pozmağa qıymır. - Heydər oğlu İsmayıl, Şah İsmayıl Xətai olunca qılıncı qın tanımayan bu ünlü bəy xatırlayır ki, indi xəyallarıyla baş-başa qalan Şahın qılıncı bir-iki saat əvvəl düşmən sərkərdəsinin başını bədənindən üzmüşdü; Səfəvilərin sancağı yeri göyə dikəltmişdi. Bu zəfərin ovqatını yaşadığını düşünür...

Şah İsmayılın baxışları bayaqdan bəri göy üzündə qanad çalan qartaldan üzülür, Loğmanın getdiyi səmtə baxır. Ürəyinə nəsə damır. Tələsik yerişlə ora gedir...

Şah İsmayılın əli yaralı qızılbaşın çiyninə enir. Səssiz təbəssümünün sözü aydınlığıyla sezilir: "Mərhəba, qazi qardaşım!". Belə səssiz təbəssümü hamısı arzulayardı. Yaralı qızılbaşın da səssiz təbəssümünün səsi aydınlığıyla anlaşılır: "Canım məmləkətimizin sadağası olsun, şahım!". Minlərlə qızılbaşın and misallı harayı yeri-göyü silkələyir: "Canım məmləkətimizin sadağası olsun, şahım!"...

2017-ci ilin apreli...

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 2016-cı ilin aprel döyüşlərinin ildönümünə həsr olunmuş təntənəli tədbirdi. Müdafiə naziri general-polkovnik Zakir Həsənov döyüşlərdə fərqlənmiş bir qrup hərbi qulluqçunu, döyüşlərdə yaralanıb tərxis olunanları "Şücaətə görə" medalıyla təltif edir.



Baş leytenant Azər Məmmədov tədbirə əl arabasıyla gəlib. "Xahiş edirəm, əl arabasını salondan çıxardın" - deyir. "Oturmağa dözümüm çatar...". Çoxu bilmir ki, Azər bu arabadan son nəfəsinəcən istifadə edəcək; döyüşlərdə ağır yaralar alıb...

Bir azdan "Şücaətə görə" medalı təqdim ediləndə ayağa qalxa bilməyəcək. Onda salona üzücü sükut çökür. Və Müdafiə naziri ... özü salona enir. Aprel döyüşlərində şücaət göstərmiş zabitin yanına... Duyğusal məqamdı. Aprel döyüşlərində iştirak edənlərin, aprel döyüşlərinin ovqatını qürurla yaşadanların davamlı alqışları. Bu davamlı alqışlar ürəklərin dediklərinin səmimi tərcümanıdı: "Bu xalqa məğlubiyyət yoxdu!"...

Müdafiə naziri aprel döyüşlərində yaralanmış zabitə təşəkkür edir. 515 il əvvəl Şah İsmayıl Xətainin yaralı qızılbaşa dediklərini xatırlayıram: "Mərhəba, qazi qardaşım!". Təltif olunan baş leytenant təltifə görə minnətdarlığını bildirir. Yaralı qızılbaşın Şah İsmayıl Xətaiyə dediklərini xatırlayıram: "Canım məmləkətimizin sadağası olsun!.."

Yüz illər keçsə də, ruh həmin ruhdu. Var səsimlə haraylamaq istəyirəm: xəlqi ruh yaşadılır! Xəlqi ruha zaval yoxdu!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Litva Seymində Xocalı soyqırımı ilə bağlı müraciət qəbul edilib

*Litva Seyminin bir qrup üzvü Xocalı soyqırımının 25-ci ildönümü ilə bağlı müraciət qəbul edib.*

Sənəddə qeyd edilir ki, Dağlıq Qarabağ münaqişəsi XX əsrdə baş vermiş ən faciəli münaqişələrdən biridir. Həmçinin Azərbaycan ərazisinin 20 faizinin işğal edildiyi, bir milyondan artıq azərbaycanlının doğma yurdundan didərgin salındığı bildirilir. Bundan başqa, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılması ilə bağlı BMT Təhlükəsizlik Şurası tərəfindən dörd qətnamənin qəbul edilməsinə baxmayaraq, həmin sənədlərin tələblərinin hələ də yerinə yetirilmədiyi vurğulanır.

Seymin deputatları Xocalı şəhərində yüzlərlə dinc əhalinin amansızcasına qətlə yetirilməsini insanlığa qarşı törədilmiş ən dəhşətli cinayət kimi qiymətləndirərək Azərbaycan xalqına başsağlığı veriblər.

Müraciətdə Litva Respublikasının Azərbaycanın ərazi bütövlüyünü daim dəstəklədiyi qeyd edilir. Seymin üzvləri təcavüzkar qüvvələrin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması ilə bağlı beynəlxalq təşkilatlar tərəfindən qəbul olunan qətnamələrin yerinə yetirilməsi tələbi ilə çıxış ediblər.

**AZƏRTAC**

# Qoşunların təmas xəttində monitorinq insidentsiz başa çatıb

*ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, aprelin 27-də Azərbaycan və Ermənistan dövlət sərhədinin Qazax rayonu ərazisində qoşunların təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Saymon Tiller və Mixail Olaru keçiriblər.

Ermənistan tərəfindən isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Martin Şuster aparıblar.

# Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi beynəlxalq müdafiə sərgisində iştirak edib



Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov Xorvatiya Respublikasının Split şəhərində keçirilən 4-cü "Adriatik Dəniz Müdafiə və Hava Məkanı Sərgisi"ndə iştirak edib.

Xorvatiya Müdafiə Nazirliyinin sponsorluğu və dəstəyi ilə keçirilən bu tədbirin məqsədi hərbi sənaye mütəxəssisləri və istehsalçıları ilə bu sahənin liderlərini, icraçılarını və siyasətini təyin edən rəsmiləri bir araya gətirmək və satınalma sahəsində müasir müdafiə texnologiyalarının müzakirəsi olub.

Sərgidə 70-ə yaxın xarici nümayəndə heyəti və 500-dən çox yerli və xarici şirkətlər iştirak edib.

Açılış mərasimində Xorvatiyanın Prezidenti, Baş nazirin müavini - Müdafiə naziri və digər dövlət və hökumət rəsmiləri iştirak ediblər.

Səfər zamanı general-polkovnik N.Sadıkov sərgi ilə tanış olub və ikitərəfli görüşlər keçirib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycan Müdafiə Nazirliyinin nümayəndə heyəti Beynəlxalq Təhlükəsizlik Konfransında iştirak edib

Azərbaycan Respublikasının Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Moskva şəhərində keçirilən VI Beynəlxalq Təhlükəsizlik Konfransında iştirak edib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Rusiya Federasiyası Müdafiə Nazirliyi tərəfindən təşkil olunan beynəlxalq konfransda 78 ölkənin nümayəndəsinin iştirakı ilə qlobal və regional təhlükəsizlik məsələləri müzakirə olunub.

Plenar iclaslarda beynəlxalq terrorizmə, o cümlədən Yaxın Şərqdə terrorizm və radikalizmə qarşı mübarizə, informasiya məkanının təhlükəsizliyi, raket əleyhinə müdafiə, Avropa, Asiya-Sakit okean, Mərkəzi Asiya regionlarında təhlükəsizliyin təmin edilməsi, eləcə də dünyanın müxtəlif bölgələrində təhlükəsizliyin gücləndirilməsində hərbi qurumların roluna dair fikir mübadiləsi aparılıb.



# Rusiyadan ölkəmizə müasir silah və hərbi texnikanın yeni partiyası gətirilib

*Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında imzalanmış hərbi-texniki əməkdaşlıq müqaviləsinə əsasən, Rusiyadan ölkəmizə silah-sursat və müxtəlif təyinatlı müasir hərbi texnikanın növbəti partiyası gətirilib.*

Gəmilər vasitəsilə Bakıya çatdırılan hərbi təyinatlı yeni məhsullar ekspertlərin iştirakı ilə təhvil alınaraq, aidiyyəti hərbi hissələrə veriləcək.

Həmin silah-sursat və hərbi texnikanın ən qısa zamanda Silahlı Qüvvələrimizin bölmələrinin silahlanmasına daxil edilməsi və döyüş tətbiqinə tam hazır vəziyyətə gətirilməsi təmin ediləcək.

Yeni silah və hərbi texnikanın tətbiqi üzrə mütəxəssislərin hazırlığı rusiyalı təlimatçılar tərəfindən həyata keçiriləcək.

Bundan başqa, istifadədə olan silah və texnikanın ən yeni texnologiyaların tətbiqi ilə mərhələlərlə modernizə edilməsi prosesi də davam etdirilir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan "OSA" zenit-raket kompleksindən istifadə edib

Ermənistan cəbhə xəttində vəziyyəti yenidən gərginləşdirmək məqsədilə təxribat xarakterli fəaliyyətini davam etdirir.

Aprelin 27-də axşam saatlarında Ermənistan hava hücumundan müdafiə bölmələri tərəfindən cəbhənin Xocavənd-Füzuli istiqamətində "OSA" zenit-raket kompleksindən buraxılan idarəolunan raket heç bir hədəfə dəymədən nəzarətimizdə olan ərazidə boş sahəyə düşüb.

Əraziyə baxış keçirilərək 9M33M2 tipli raketin başlıq hissəsi və digər qalıqları tapılaraq götürülüb.

İlkin araşdırma Ermənistan silahlı qüvvələrinin silahlanmasında olan raketlərin köhnə və istismara yararsız olduğunu göstərib.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***28 aprel 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 120 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli və Qaymaqlı kəndlərində, Berd rayonunun Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Muncuqlu və Koxanəbi kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Mərzili, Cəvahirli, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Qorqan, Horadiz kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Əfqanıstandakı sülhməramlılarımızın bir qrupu Azərbaycana qayıdıb



NATO-nun Əfqanıstan İslam Respublikasında həyata keçirdiyi "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasının tərkibində fəaliyyət göstərən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 54 nəfərdən ibarət qrupu plana uyğun olaraq, rotasiya qaydasında Bakıya qayıdıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Əfqanıstandakı sülhməramlı missiyası 20 noyabr 2002-ci il tarixdən başlayıb.

Hazırda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 hərbi qulluqçusu, 2 hərbi həkimi və mühəndis-istehkam ixtisası üzrə 2 zabiti Əfqanıstandakı missiyada iştirak edir.

# Azərbaycanın və Fransanın hərbi mütəxəssisləri arasında kibertəhlükəsizlik üzrə işçi görüşü keçirilib

Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Fransa Respublikası Müdafiə Nazirliyi arasında 2017-ci il üçün ikitərəfli əməkdaşlıq planına əsasən, Bakıda kibertəhlükəsizlik üzrə mütəxəssislərin işçi görüşü keçirilib.

Tədbirdə dövlət idarəçiliyi, bank, nəqliyyat, milli təhlükəsizlik və digər sahələrdə kibertəhlükəsizliyin gücləndirilməsinin vacibliyi vurğulanıb.

Mütəxəssislər tərəfindən kibertəhlükəsizlik, onlayn təhlükəsizlik, şəbəkələrin etibarlılığı üçün həlledici təminat məsələləri ən mühüm istiqamətlərdən biri kimi qiymətləndirilib. Bu sahədə səmərəli beynəlxalq əməkdaşlıq, lazımi qərarların qəbulu və onların həyata keçirilməsi məqsədilə hər il regional və qlobal səviyyədə dövlət, qeyri-hökumət və beynəlxalq qurumlar tərəfindən müxtəlif tədbirlərin təşkilinin vacibliyi qeyd olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

AZƏRBAYCAN ORDUSU

# Hərbi məktəbin kursantları artilleriya qurğularından döyüş atışları icra edib



Cari ilin döyüş hazırlığı planına əsasən, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin 4-cü kursunda təhsil alan kursantlar üçün artilleriya təlim mərkəzində "Atış və atəşin idarə edilməsi" fənni üzrə döyüş atışlı praktiki məşğələ keçirilib.

Məşğələnin əsas məqsədi tədris dövründə keçirilən dərslərdə ixtisas hazırlığı üzrə əldə olunan bilik və bacarıqların poliqonlarda, real döyüş şəraitinə uyğun vəziyyətdə praktiki tətbiqinin yoxlanılması olub.

Kursantlar 122 millimetrlik D-30 tipli haubitsalardan döyüş mərmiləri ilə atışları icra etməklə müxtəlif məsafələrdə hərəkət edən və hərəkətsiz hədəfləri məhv etmək üzrə normativ çalışmaları yerinə yetiriblər.



Döyüş şəraitinə tam uyğunlaşdırılmış vəziyyətdə keçirilən təlimdə şəxsi heyətin döyüş və mənəvi-psixoloji keyfiyyətləri yüksək qiymətləndirilib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Poliqonda döyüş ovqatı

*Səhər tezdən dağların ətəyində tərtəmiz, sərin yaz havası adamın könlünü oxşayır. UAZ-dan düşüb yamaca doğru gedərkən zərif otların arasında torpaqdan təzəcə boy vermiş ağ güllər diqqətimi cəlb etdi. Ətrafa nəzər yetirəndə çoxlu belə güllər gördüm. Elə bil, zümrüd kimi yamyaşıl otların üzərinə adda-budda qar yağmışdı. Bəlkə, elə buna görə təbiətin ilk gülünə həm də qargülü deyirlər.*

Ancaq təbiətin bu mənzərəsi barədə düşünərkən nərilti ilə bir qədər aralıdan keçən tank sanki məni kövrək duyğulardan ayırdı. Yəni, hərbçilər poliqona təbiətin gözəlliyinə tamaşa etmək üçün deyil, döyüş ustalıqlarını artırmaq üçün gəliblər.

Hələ qərargahda olarkən zabit Rasim Manafov da təlim mərkəzinə getməyi məsləhət gördü:

- Poliqonda hazırda müxtəlif ixtisaslar üzrə praktik məşğələlər, atışlar, təlimlər keçirilir. Həm hərbçilərin fəaliyyətini izləmək, həm də qeydlər etmək üçün maraqlı olacaq.

Hərbi hissədən təlim mərkəzinə yola düşürük. Çoxdan bacarıqlı artilleriyaçı kimi tanıdığım zabit Etibar Orucov da bizimlədir. Salamlaşıb hal-əhval tuturuq. Məlum olur ki, təlim mərkəzində artilleriyaçılar da hazırlıqlarını artırmaqla məşğuldurlar.

Ucu-bucağı bilinməyən təlim mərkəzində kapitan Rəşad Hümbətovla tanış oluruq. Əslən Daşkəsən rayonunun Əhmədli kəndindən olan zabit 15 ildən artıqdır ki, Silahlı Qüvvələrimizdə zabit kimi xidmət edir. O, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunudur.

- Birləşmiş təlim mərkəzi Silahlı Qüvvələrimizin ən böyük poliqonlarındandır, - zabit Hümbətov bizimlə söhbətində təlim mərkəzi barədə ətraflı məlumat verir. - Bizim birliyə tabe olan hərbi hissələrin şəxsi heyəti praktik dərsləri və təlimləri burada keçir, ixtisas, atəş və taktiki hazırlıqlarını artırırlar. Təlim mərkəzində müxtəlif bölmələrin döyüş vərdişlərini möhkəmləndirmək üçün hər cür şərait var.

Biz zabit Hümbətovla birlikdə təlim mərkəzini gəzdik, burada praktik vərdişlərini artırmaqla məşğul olan bölmələr barədə qeydlər götürdüm.

Bir yanda gənc əsgərlər qrup rəhbərinin nəzarəti altında atıcı silahların taktiki-texniki xüsusiyyətlərini mənimsəyirdilər. Onlardan bir qədər aralıda kəşfiyyatçılar atəş hazırlığından məşğələdə iştirak edir, əl qumbaralarını hədəflərə atma vərdişlərini artırırdılar. Sol tərəfdə tankların nəriltisi eşidilirdi. Tank bölməsinin sürücü-mexanikləri döyüş hazırlığı planına uyğun olaraq zirehli texnikanı idarə edir, müxtəlif maneələri dəf etməklə peşə bacarıqlarını möhkəmlədirdilər.



Təlim mərkəzinin sağında, zirvələrin ətəyində isə zabit hazırlığı planına uyğun birinci eşelon birləşmələrinin bölmə komandirləri və onların müavinlərilə təlim-metodik toplantı keçirilirdi. İki günlük toplantının artıq sonuncu günü idi. Biz məşğələ yerinə gələndə zabitlər tibbi hazırlıq üzrə praktik dərsdə iştirak edirdilər.

Dərsi kənardan müşahidə edən general-mayor Gəray Bağırov bizimlə söhbətində dedi:

- Toplantı illik fəaliyyət planına uyğun olaraq keçirilir, zabitlər öz bilik və bacarıqlarını daha da möhkəmlədirlər. Bir gün öncə tabor komandirləri və onların müavinlərilə praktik olaraq SPQ-dən, 60 mm minaatanlardan praktik atışlar yerinə yetirilib. Bundan əlavə ərazidə mühəndis təminatı üzrə praktik dərs keçirilib. Döyüş mövqelərinin mühəndis nöqteyi-nəzərdən düzgün qurulması, partlayan və partlamayan maneələrin düzgün istifadə edilməsi qaydaları bütün komandir heyətinə göstərilib.

Toplantının planına əsasən, hazırda döyüş meydanında yaralı, xəsarət alan hərbi qulluqçulara ilk tibbi yardımın göstərilməsi mövzusunda dərs keçirlir. Birliyin tibb xidməti rəisi praktik baxımdan hadisə yerində yaralıya ilk tibbi yardımın necə göstərilməli olduğunu nümayiş etdirir.

Bir qədər sonra dağ-atıcı birləşməsinin ayrı-ayrı qruplarının dağlıq ərazidə nümunəvi taktiki fəaliyyəti nümayiş etdirildi. Tapşırığa uyğun öncə qarşıdakı şərti düşmən mövqelərinə artilleriya zərbələri endirildi. Davamınca döyüş texnikasından, tanklardan istifadə etməklə, iriçaplı DŞK, AQS kimi silahların dəstəyilə zabit Vasif Osmanovun komandiri olduğu tabor taktiki qrupunun dağ-atıcı bölmələri hücuma keçdi. Sanki hadisələr poliqonda deyil, döyüş meydanında cərəyan edirdi.

Döyüşün taleyi bölmələrin çevikliyindən asılıdır. Ona görə taborun döyüşçülərinin cəld irəliyə atılması və cəsarətlə "düşmən" mövqelərinə yaxınlaşması xoş təəssürat oyatdı. Qısa zaman ərzində bölmələrimiz düşmən mövqelərini ələ keçirdilər və qarşıya qoyulmuş "döyüş" tapşırığını məharətlə yerinə yetirdilər.

Tabor taktiki qrupunun fəaliyyəti başa çatdıqdan sonra general-mayor Gəray Bağırovdan təlimin yekununu dəyərləndirməsini xahiş etdim.

- Taktiki qrupun fəaliyyəti tabor komandirləri və onların müavinlərinin iştirakı ilə təhlil ediləcək, - yüksək rütbəli zabit dedi. - Bununla belə tankların hədəfləri necə vurmasını, iriçaplı pulemyotların necə atəş açmasını, bölmələrin hərəkətini siz özünüz gördünüz. Taborun nümayiş etdirdiyi fəaliyyət, əslində, döyüş hazırlığı məşğələlərində, praktik dərslərdə döyüşçülərimizin qazandığı bilik və vərdişlərdən xəbər verir. Təbii ki, müəyyən çatışmazlıqlar oldu və onlar belə praktik dərslərdə təhlil edilir və aradan qaldırılır.

Həmin gün birləşdirilmiş təlim mərkəzində, sözün həqiqi mənasında, döyüş ovqatı vardı və praktik məşğələlərə cəlb edilmiş bölmələr döyüş hazırlığını yüksəltməklə məşğul idilər.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**

# Azərbaycan, Rusiya və Ermənistan XİN rəhbərlərinin görüşü

*Aprelin 28-də Moskvada Rusiya tərəfinin təşəbbüsü ilə Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin - Sergey Lavrovun, Elmar Məmmədyarovun və Edvard Nalbandyanın işgüzar görüşü olub.*

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair danışıqlar prosesində irəliləyiş perspektivlərinin müzakirəsi davam edib. 2016-cı ilin aprel və iyun aylarında Vyana və Sankt-Peterburq sammitlərində əldə edilmiş razılaşmaların yerinə yetirilməsinin zəruriliyi vurğulanıb.

Azərbaycan və Ermənistan xarici siyasət idarələrinin rəhbərləri Rusiyanın xarici işlər nazirinə Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinə kömək göstərmək səylərinə görə təşəkkür ediblər. Nazirlər müzakirə edilmiş bütün məsələlər üzrə əlaqələri davam etdirmək barədə razılığa gəliblər.

Rusiya, Azərbaycan və Ermənistan nazirlərinin üçtərəfli danışıqlarının yekunlarına əsasən, onlar ATƏT-in Minsk Qrupunun həmsədrləri - Rusiya, ABŞ və Fransa səfirləri ilə, habelə ATƏT-in fəaliyyətdə olan sədrinin nümayəndəsi ilə görüşlər keçiriblər. Bu görüşlərdə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi sahəsində vəziyyət barədə fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**



*Aprelin 23-də Azərbaycanın Milli Qəhrəmanı yəhudi əsilli Albert Aqarunovun xatirəsinə həsr olunan Beynəlxalq Şotokan Karate-Do Federasiyası filialının V açıq çempionatı keçirildi.*

Milli Qəhrəmanlarımız

# "Şuşanın əfsanəsi"nə ehtiram

Aprelin 25-də isə qəhrəmanın adının əbədiləşdirilməsi məqsədilə Suraxanı rayonunda yaşadığı binaya vurulmuş xatirə lövhəsinin açılışı oldu.

Tədbirdən öncə A.Aqarunovun vaxtilə təhsil aldığı məktəbin şagird və müəllim kollektivi, döyüşçü yoldaşları, Bakı Dağ Yəhudiləri Dini İcmasının nümayəndələri və digər qonaqlar Şəhidlər xiyabanına gələrək qəhrəmanın məzarını ziyarət etdilər.

Sonra mərasim Dövlət himninin səsləndirilməsi və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsilə davam etdirildi.

Suraxanı rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov çıxış edərək bildirdi ki, Albert Aqarunov 8 may 1992-ci ildə Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. "Albert Aqarunov Xankəndi, Daşaltı, Cəmilli istiqamətində gedən döyüşlərdə erməni işğalçılarının xeyli canlı qüvvəsini və zirehli texnikasını məhv etmişdir. Cəsurluğu və qorxmazlığı ilə bütün cəbhə boyu şöhrət qazanan Albert Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı fərmanı ilə ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür."

Suraxanı rayonunda da şəhid ailələrinə, müharibə əlillərinə və iştirakçılarına xüsusi diqqət və qayğı göstərildiyini deyən icra başçısı çıxışına davam edərək qeyd etdi ki, Suraxanı rayonunda ötən dövrdə 63 şəhidin xatirə kompleksi əsaslı təmir olunub.



İcra başçısı qəhrəmanların həyat yolunun hər bir gənc üçün örnək olduğunu və onların davamçılarının ötən ilin aprelində düşmənin təxribatına layiqli cavab verdiklərini vurğulayaraq dedi ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin siyasi iradəsi, müdrik rəhbərliyi altında Silahlı Qüvvələrimiz ötən ilin aprelində yüksək taktiki hazırlıq səviyyəsi və işğal altında olan torpaqlarımızı azad etmək əzmini nümayiş etdirdi. "Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, bərpa edəcəkdir."

Tədbirdə çıxış edən Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, Şuşa rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov, Azərbaycanın Milli Qəhrəmanı general-mayor Fəxrəddin Cəbrayılov, Suraxanı Maşınqayırma zavodunda Albert Aqarunovun iş yoldaşı olmuş Məşğul Mirzəyev, keçmiş döyüşçülərdən Hacı Əzimov, Ağa Qasımov və başqaları da Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun şərəfli həyat və döyüş yolundan danışdılar.

Milli Qəhrəmanın qardaşı Rantik Aqarunov ailəsi adından dövlətimizin rəhbərliyinə şəhid ailələrinə göstərilən böyük ehtirama görə minnətdarlığını bildirdi.

Sonda Suraxanı rayonundakı Heydər Əliyev parkında Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin və Şuşa şəhər İncəsənət məktəbinin yaradıcı kolllektivlərinin iştirakı ilə konsert proqramı nümayiş etdirildi.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Düşmənin ayaq izləri yurdumuzdan silinəcək

Ezamiyyətdə olduğumuz zaman həmişəki kimi səngərə - əsgərlərimizlə görüşə can atırıq. Gözlərimiz təbiət gözəlliklərinin axtarışındaykən yolun solundakı düzənlikdə bir qrup şəxsi heyətin toplaşdığının şahidi oluruq. Öyrənirik ki, öz bilik və bacarıqlarını təkmilləşdirmək üçün minaatan bölmələrinin şəxsi heyəti təlim keçir.

- Cəbhəboyu zonada yerləşən hərbi hissənin minaatan bölmələrinin döyüşə hazırlıq səviyyəsi yoxlanılır, - deyə taqım komandiri leytenant Əli İmamquliyev söhbətə başladı. - Dağ-meşəlik və düzənlik ərazilərdə keçirilən praktiki məşqlərə cəlb olunan şəxsi heyət 60 millimetrlik minaatan komplekslərindən şərti düşmənin yüngül zirehli texnikasını, canlı qüvvəsini və atəş nöqtələrini imitasiya edən, eləcə də təbii maneələrin arxasında yerləşən və müşahidə edilməyən digər hədəfləri məhv etmək tapşırıqlarını yerinə yetirir. Keçirilən məşqlərdə bölmələrin "döyüş" və "səfər" düzülüşü, hədəflərin aşkarlanaraq təyin edilməsi, atış yerinin seçilməsi, mövqeyin dəyişdirilməsi və xüsusi hazırlıq üzrə normativlər icra edilir. Bu təlimlərdə əsas məqsəd əsgərlərin vərdişlərinin təkmilləşdirilməsindən, eləcə də ağır şəraitdə aparılan müasir döyüş hazırlığının səviyyəsinin artırılmasından ibarətdir.

Göyçay rayonundan hərbi xidmətə çağırılan əsgər Sadiq Hacıyev bildirdi ki, döyüş hazırlığı planına uyğun olaraq zabitlərimiz tərəfindən keçirilən təlim-məşq toplantıları xüsusi əhəmiyyətə malikdir və onların döyüş vərdişlərinin artmasına xidmət edir: "Bizim başlıca məqsədimiz hərbi bilikləri mənimsəməkdir. Məhz dərindən öyrəndiklərimizin hesabına düşmənə qalib gələ bilərik. Aprel döyüşləri sübut etdi ki, aparılan əməliyyatlarda artilleriya xüsusi əhəmiyyətə malikdir".

Əsgər Araz Babayev də qeyd etdi ki, təlimlərin hesabına döyüş hazırlığımız yüksəlir. "Biz artıq 60 millimetrlik minaatan silahının istismar xüsusiyyətlərini mükəmməl mənimsəmişik. Döyüşmək üçün təhkim olunan silahın taktiki-texniki xüsusiyyətlərini bilmək vacib şərtdir. Bu amil qazanılacaq qələbədə böyük əhəmiyyət kəsb edir. Lakin ən mühüm amil düşmənləri qəlbimizdəki Vətən sevgisinin atəşi ilə məhv etməkdir.

- Bəli, bir övlad olaraq ana Vətənimizə - Azərbaycanımıza borcluyuq, - deyə əsgər Rahil Cəbrayılov söhbətə qoşuldu. - Əsl vətənpərvər o adama demək olar ki, o, öz Vətənini bütün qəlbi ilə sevir, onun azadlığı və istiqlaliyyəti uğrunda hər an canını qurban verməyə hazırdır. Mübariz İbrahimov, Çingiz Qurbanov kimi qəhrəmanlarımız bizlərə nümunədirlər.

İmişli rayonundan olan əsgər Barat Əliyev Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğıdan söz açdı: "Ölkə və ordu rəhbərliyindən göstərilən yüksək diqqət və qayğı hər birimizdə Qələbə ruhunu yüksəldib. Artıq Azərbaycan Ordusu Ermənistan üçün böyük təhlükə mənbəyidir. Düşmən də verdiyi açıqlamalarda öz məğlubiyyətlərini etiraf edir, xüsusən aprel döyüşlərindən sonra. İndi Azərbaycanın həm hərbi, həm psixoloji baxımdan üstünlük qazandığı inkar edilməz səviyyədədir. İnanırıq ki, bu üstünlüklər xalqımızın səbirsizliklə gözlədiyi Qələbəyə gətirib çıxaracaq".



Əsgərlərimizin söylədiyi fikirlərin təsiri altında onlardan ayrılıram. Yolboyu içimdə bir fikir tüğyan edir: "Tezliklə igid oğullarımız sənin hər bir oylağından düşmənin ayaq izlərini siləcək, Vətən!"

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# "Rusiyadan alınan hücum silahlarının ölkəmizə gətirilməsi ordumuzun güclənməsinə böyük töhfədir"



*Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında imzalanmış hərbi-texniki əməkdaşlıq müqaviləsinə əsasən, Rusiyadan mərhələli şəkildə ölkəmizə müxtəlif təyinatlı müasir hərbi texnikanın növbəti partiyası gətirilir. Hesab edirəm ki, aprelin 26-da ictimaiyyətə təqdim edilən bu silah və texnika Müdafiə Nazirliyi tərəfindən alınan silahların hamısı yox, cüzi bir qismidir. Çünki alınan bütün silah və texnikaların hamısının nümayişi təhlükəsizlik baxımından yolverilməzdir. Bu fikri hərbi ekspert, ehtiyatda olan polkovnik-leytenant Mirşamil Hadıyev AZƏRTAC-a açıqlamasında deyib.*

"Əlbəttə, bu silah və texnika paradda nümayiş etdirmək və yaxud da sıra baxışı üçün alınmayıb. Bunlar konkret olaraq, döyüşdə istifadə və düşməni məhv edərək torpaqlarımızın azad edilməsi üçün alınıb. Əminəm ki, aldığımız texnika və silahlar tezliklə bu müqəddəs vəzifənin icrası zamanı istifadə olunacaq. İnanıram ki, alınan yeni silah və hərbi texnikanın tez bir zamanda mütəxəssislər tərəfindən mənimsənilərək döyüş bölgələrində yerləşən bölmələrimizin silahlanmasına verilməklə aktiv döyüşlər zamanı şəxsi heyətin döyüş imkanlarının daha da güclənməsini təmin etmiş olacaq. Bundan başqa hesab edirəm, istifadədə olan silah və texnikanın ən yeni texnologiyaların tətbiqi ilə mərhələlərlə modernizə edilməsi prosesi də Silahlı Qüvvələrimizin qarşısında qoyulan tapşırıqların uğurla yerinə yetirilməsinə öz töhfəsini verəcək.

Hər kəs görür ki, Azərbaycan Ordusu həm texniki təchizat, həm döyüş qabiliyyəti baxımından dünya miqyasında güclü ordular sırasında öz yerini inamla tutmaqda davam edir və ordumuz bu yeniliklərin nəticəsi olaraq istənilən hərbi vəzifəni icra edə bilər və edəcəkdir", - deyə M.Hadıyev diqqətə çatdırıb.

# Azərbaycan Ordusunun tarixi yubileyləri ərəfəsində

Ehtiyatda olan polkovnik Mehman SÜLEYMANOV,
Silahlı Qüvvələrin Hərbi Akademiyasının Adyunktura və Elm Şöbəsinin hərb tarixi üzrə dosenti, tarix elmləri doktoru



*İnkişaf xüsusiyyətlərinə və əhəmiyyətinə görə XX əsrin birinci rübünü Azərbaycanın hərb tarixinin intibah və təkamül dövrü kimi xarakterizə etmək mümkündür. Baxmayaraq ki, bu dövr ərzində Azərbaycan xalqı siyasi məzmunu ilə bir-birindən fərqlənən üç siyasi quruluşda yaşamalı olmuşdu, amma bu quruluşların hər birinin Azərbaycanın hərb tarixində özünəməxsus yeri vardır.*

Çar Rusiyası tərkibində azərbaycanlıların bu imperiyanın ordusunda xidmət etməsinə müəyyən məhdudiyyətlər olmasına baxmayaraq, XX əsrin əvvəllərində bu ordu tərkibində azərbaycanlı zabitlərin və generalların yeni bir nəsli yetişdi, Port-Artur və Birinci Dünya müharibəsi cəbhələrində bu nəsil zabitlər peşəkarlıq baxımından daha da formalaşdılar və sonradan onların böyük bir hissəsi müstəqil Azərbaycanın ordu quruculuğunun kadr bazasını təşkil etdilər.

1917-1918-ci illərdə Azərbaycanda ordu quruculuğunun əsası qoyuldu. Bu dövrdə atılan addımların bir hissəsi Azərbaycanın müstəqilliyi ərəfəsinə, yəni 1917-ci ilin sonlarına və 1918-ci ilin əvvəllərinə təsadüf edir. Bununla belə, həmin dövrdə görülən işlərin əhəmiyyətini qeyd etməmək mümkün deyil. Məsələn, 1917-ci il dekabrın 11-də o zaman Cənubi Qafqazda legitim hakimiyyət orqanı olan Zaqafqaziya Komissarlığı tərəfindən Müsəlman korpusunun yaradılması haqqında qərar qəbul edildi və sonradan Azərbaycan Xalq Cümhuriyyəti ordusunun əsasının təşkil edəcək hissə və birləşmələrin, o cümlədən hərbi strukturların əsası qoyuldu. Müsəlman korpusunun hərb tariximiz üçün başqa bir əhəmiyyəti ondadır ki, bu korpus XX əsr Azərbaycanın hərb tarixində ilk nizami hərbi birləşmədir. Müsəlman korpusunun formalaşması çərçivəsində 1918-ci il martın 1-də isə Azərbaycanda milli hərbi təhsilin əsası qoyuldu.

Başqa sözlə, xalqımız 1917-ci ilin dekabrında Müsəlman korpusunun təşkilinin, 1918-ci il martın 1-də Azərbaycanda milli hərbi təhsilin əsasının qoyulmasının, həmin ilin iyununda Azərbaycan Ordusunun yaradılmasının, 1918-ci ilin sentyabrında Qafqaz İslam Ordusu tərəfindən Bakı şəhərinin erməni-daşnak qüvvələrindən azad edilməsinin 100 illiyini qeyd edəcəkdir. Ona görə də yaşadığımız cari il və üzümüzə gələcək 2018-ci il Azərbaycan Ordusunun tarixində bir əsrlik yubileylər ilidir və şübhə yoxdur ki, bu yubiley tarixlərinin hər biri layiqincə qeyd ediləcəkdir.

Ötən illərin təcrübəsini nəzərə alaraq demək olar ki, bu tarixi yubileylərin qeyd edilməsi üçün həm dövlət səviyyəsində, həm də ordu səviyyəsində tədbirlər proqramı qəbul ediləcəkdir. Bu tarixi yubileylər, heç şübhəsiz ki, həm də Azərbaycan Ordusunun bir əsrlik tarixinin açılmamış səhifələrinin araşdırılması, üzə çıxarılması ilə əlamətdar olacaqdır və bu istiqamətdə Silahlı Qüvvələrin Hərbi Akademiyasının Adyunktura və Elm Şöbəsi tərəfindən artıq konkret proqram tutulmuşdur.

Azərbaycan Ordusunun 100 illik tarixinin araşdırılması ilə bağlı yeni vəzifələr, əslində, hələ 2016-cı ildə müəyyənləşdirilib. Ötən il mayın 4-də Silahlı Qüvvələrin Hərbi Akademiyası tərəfindən təşkil edilmiş "Heydər Əliyev irsində hərb tarixi məsələləri" mövzusunda elmi konfransda çıxışı zamanı Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycanın hərb tarixinin kompleks öyrənilməsinin zəruriliyi barəsində göstəriş və tövsiyələrini verdi. Həmin göstəriş və tövsiyələrin həyata keçirilməsi istiqamətində Hərbi Akademiyanın Adyunktura və Elm Şöbəsi artıq konkret işlər görmüş və yaxın gələcək üçün də konkret vəzifələr müəyyənləşdirmişdir.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan Ordusunun 100 illiyi ilə bağlı aparılan araşdırmalar Silahlı Qüvvələrin Hərbi Akademiyasının elmi iş planı əsasında qurulur. Hərbi Akademiyanın rəhbərliyinin əməli köməyi nəticəsində artıq müəyyən nəticələr əldə edilmiş və çap üçün təqdim olunmuşdur.

Hər şeydən əvvəl Adyunktura və Elm Şöbəsinin əməkdaşları tərəfindən Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivində və Müdafiə Nazirliyinin arxivində uzunmüddətli araşdırmalar aparılmış, Müsəlman korpusunun və Cümhuriyyət Ordusunun tarixi ilə bağlı yeni faktlar üzə çıxarılmış, müasir Azərbaycan Ordusunun tarixi ilə bağlı isə yeni-yeni sənədlər elmi dövriyyəyə gətirilmişdir. Adyunktura və Elm Şöbəsi tərəfindən artıq çapa hazırlanmış "Azərbaycan Ordusunun tarixi" adlı çoxcildliyin I və II cildləri Müsəlman korpusunun və Cümhuriyyət Ordusunun tarixinə həsr olunmuşdur, onların hazırlanmasında son zamanlar üzə çıxarılmış maraqlı faktlardan geniş istifadə olunmuşdur. Arxivlərdə üzə çıxarılmış materiallar əsasında xeyli sayda elmi məqalələr hazırlanmış və həmin məqalələr "Azərbaycan Ordusu" qəzetində, "Hərbi Bilik" jurnalında, "Milli Təhlükəsizlik və Hərbi Elmlər" jurnalında çap olunmuşdur. Həmin materiallar əsasında Adyunktura və Elm şöbəsi əməkdaşlarının iştirakı ilə Azərbaycan televiziyasının "Hərb tariximizdən" proqramında Cümhuriyyət Ordusunun tarixi ilə bağlı 2017-ci ilin birinci rübündə üç veriliş hazırlanmışdır. Ümumən, Azərbaycan Ordusunun 100 illik tarixinin müxtəlif səhifələrinin təbliği və ictimaiyyətə çatdırılması üçün Azərbaycan televiziyasının müvafiq proqramı ilə, "Azərbaycan Ordusu" qəzetinin və "Hərbi Bilik" jurnalının redaksiyaları və Müdafiə Nazirliyinin Mətbuat Xidməti ilə işgüzar əməkdaşlıq əlaqələri yaradılmış, bu əməkdaşlıq gələcəkdə davam etdiriləcəkdir.

Azərbaycan Ordusunun 100 illik yubileyi ilə bağlı Adyunktura və Elm Şöbəsi tərəfindən Müsəlman korpusunun komandiri və Cümhuriyyətin hərbi nazirinin müavini tam artilleriya generalı Əlağa Şıxlinski haqqında monoqrafiya hazırlanmışdır. Nəzərdə tutulmuşdur ki, Cümhuriyyət Ordusu və onun qurucuları haqqında məqalələr hazırlanaraq xarici ölkələrin mətbuat orqanlarında da çap etdirilsin. Bu istiqamətdə işlərə artıq başlanıb və general Əlağa Şıxlinski haqqında hazırlanıb məqalə hazırda tərcümə olunmaqdadır. Adyunktura və Elm Şöbəsinin planına əsasən, cari ilin sonuna kimi Cümhuriyyətin hərbi naziri Səməd bəy Mehmandarov haqqında da monoqrafiyanın tamamlanması nəzərdə tutulub.

Silahlı Qüvvələrin Hərbi Akademiyasının Adyunktura və Elm Şöbəsi tərəfindən 2018-ci ildə Azərbaycan Ordusunun 100 illiyi ilə bağlı keçiriləcək elmi konfransın hazırlığına da artıq başlanmışdır. Konfransla bağlı məlumat hazırlanaraq respublikanın elmi ictimaiyyəti arasında yayılmışdır. Nəzərdə tutulmuşdur ki, konfransa göndəriləcək elmi məqalələr ayrıca toplu halında çap olunsun.

Adyunktura və Elm Şöbəsi tərəfindən fəlsəfə doktoru və elmlər doktoru üzrə təhsil alan tədqiqatçılar da artıq Azərbaycan Ordusunun 100 illik tarixinin öyrənilməsinə cəlb edilir. 2016-cı ildə fəlsəfə doktoru proqramı üzrə adyunkturaya daxil olmuş Gülsurə Hüseynovanın elmi işi məhz Azərbaycan Ordusunun tarixi ilə bağlıdır. Onun Azərbaycan Ordusunda dil məsələsi ilə bağlı artıq üç məqaləsi çap olunmuşdur. G.Hüseynova eyni zamanda Cümhuriyyət Ordusunun hərbi şərqilərini toplayaraq çapa hazırlayıb və bu toplu da yaxın vaxtlarda işıq üzü görəcək.

Azərbaycanın Sovet dövrü, müstəqillik dövrü, o cümlədən 2016-cı ilin aprelində erməni təxribatlarına qarşı əldə edilmiş tarixi qələbələr də Azərbaycan Ordusunun 100 illik tarixinin şanlı səhifələrini təşkil edir və bu dövrlərin hərb tarixinin kompleks şəkildə öyrənilməsi, təbliğ edilməsi də Hərbi Akademiyanın Adyunktura və Elm Şöbəsinin yaxın dövr üçün fəaliyyətinin tərkib hissəsidir.



# Yazıçı ilə görüş

*Bədii əsərlər həyatı əks etdirir. Bu və ya digər mövzuda yazılmış əsərlər mahiyyəti etibarilə cəmiyyət-vətəndaş münasibətinə yönəldildiyindən insanların xarakterinin, oxucuların dünyaduyumunun formalaşmasında əhəmiyyətli rol oynayır.*

Obrazların daxili aləminin açılmasında vasitə olan bədii ədəbiyyatda təkcə hadisələr təsvir edilmir, belə əsərlərdə həm də bu və ya digər hadisənin timsalında islah edilə si xarakterlər, dünyagörüşlər də təqdim olunur.



Elxan Elatlı detektiv mövzuda yazan yazıçıdır. Onun əsərlərində ideyalılıq özünü cinayət işinin açılması prosesində göstərir. Obrazlarda sosial mühit, mühitin xarakterə təsiri, xarakterin mühitə "üsyanı" və s. kimi motivlər diqqəti çəkir.

H.Aslanov adına Mərkəzi Zabitlər Evində Elxan Elatlı ilə keçirilən görüşü Gülxar Məmmədova açaraq yazıçının özü və yaradıcılığı haqqında müfəssəl məlumat verdi.

Bu görüş, əslində, çağdaş detektiv ədəbiyyatla hərbçi-oxucuların görüşüydü. 21 roman müəllifinin Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov haqqında yazdığı əsər gənclərin vətənpərvərlik tərbiyəsində əhəmiyyətli nümunədir. Məhz buna görə də bu əsər haqqında o, daha müfəssəl danışdı.

Yazıçıya ünvanlanan suallar diqqəti təkcə oxucu marağı ilə çəkmədi, bu suallar həm də həyat hadisələrinə fəal oxucu marağı baxımından maraqlı idi. Hər sual yaradıcılıq prosesinin bir çalarına istiqamətlənsə də, ümumilikdə yazıçı-oxucu dialoqu təsiri bağışladı.

Elxan Elatlı görüşə dəvət edildiyinə görə H.Aslanov adına Mərkəzi Zabitlər Evinin rəhbərliyinə təşəkkürünü bildirdi...

**"Azərbaycan Ordusu", fotolar çavuş Namiq PƏNAHOVUNDUR**

*Hərbi təhsil*

# Gənclərin hərbə marağı böyükdür

*Hər il yüzlərlə gənc hərbçi olmaq arzusu ilə C.Naxçıvanski adına Hərbi Liseyə üz tutur. Onlar sınaqlardan uğurla keçərək kursant adını qazanırlar. Bu gün məktəblilər yenə də böyük həvəslə bu təhsil ocağına gəlirlər.*

Sənədlərin qəbulu, aparılan hazırlıq işləri ilə yaxından tanış olmaq üçün əvvəlcə qəbul komissiyasının üzvü mayor



Rauf Nəbiyevlə görüşüb söhbət etdik. O bildirdi ki, qəbul qaydalarına uyğun olaraq komissiyaya müraciət edənlər qeydiyyata alınır, sənədlər hərtərəfli yoxlanır. "Sonra onlara tibbi komissiyadan keçmək üçün bildiriş verilir. Namizədlərin qarşılanması və sənədlərin hazırlanıb yoxlanılması üçün burada hərtərəfli şərait yaradılıb. Biz bu şəraitdən istifadə edərək gənclərə yüksək səviyyədə xidmət göstərməyə çalışırıq".

Valideynlərdən Elsevər Nəcəfov razılıq edərək dedi ki, komissiya üzvləri müraciət edənlərə diqqətlə yanaşırlar. "Hələ kiçik yaşlarından oğlum Kənanın hərbə böyük marağı var, zabit olmaq istəyir. Artıq sənədlərimizi qəbul etdilər. Oğlumun hazırlığı yüksəkdir. İnanıram ki, istəyinə çatacaq".

Tibb komissiyasında da böyük canlanma var idi. Namizədlər növbə ilə bir-bir komissiyadan keçirdilər. Tibb komissiyasının sədri tibb xidməti mayoru İlkin Səmədovla görüşdük. O dedi ki, namizədlərin sağlamlığını yoxlamaq üçün məntəqə müasir tibbi avadanlıqlarla təchiz edilib. "Komissiyaya ən bacarıqlı həkim-mütəxəssislər cəlb olunub. Bir sözlə,



hazırlıq işlərinə əvvəlcədən diqqət yetirdiyimizə görə indi işlərimiz qaydasında gedir".

Budur, laborant Xəyalə Şərifova namizədlərdən qan analizləri götürür. Həkim-mütəxəssis Validəxanım Sadıqova ultrasəs, baş çavuş Kamala Babayeva elektro-kardioqrafiya müayinəsi aparır. Hamının məqsədi birdir: az vaxt ərzində və dəqiqliklə namizədlərin tibbi komissiyadan keçirilməsinə nail olmaq.

Tibbi komissiyadan yararlı çıxan namizədlər artıq elektron ərizələrini təsdiq etmək üçün qəbul komissiyasına müraciət edirlər. Elektron ərizələrin təsdiqi komissiyasının sədri mayor Mirvaleh Muradov bildirdi ki, bütün lazımi texniki avadanlıqlar quraşdırılıb və ərizələr Dövlət Tələbə Qəbulu Komissiyası tərəfindən qeydə alınır. Komissiya üzvlərindən mayor Elvin Əhmədov və kiçik çavuş Şövkət Əliyeva elektron ərizələrin təsdiq olunmasında fəallıq göstərirlər.

Qəbul komissiyasında Hərbi Liseyin psixoloqu Rövşən Vəliyev də iştirak edir. O bildirdi ki, həm kursantlarla, həm də onların valideynləri ilə görüşüb fərdi söhbətlər aparır. Hiss edir ki, gənclərin hərbi sahəyə marağı daha da artır.

Elektron ərizələri qeydə alınmış namizədlərdən Samir Əhmədov, Rüstəm Mövsümov, Əmiraslan Qurbanov, Maarif Məmmədli, Nicat Nuruyev, Nazim Osmanov və başqaları ilə görüşüb söhbət etdim. Yaradılan yüksək şəraitə görə hər kəs Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənova minnətdarlığını bildirdi.

C.Naxçıvanski adına Hərbi Liseyə sənədlərin qəbulu aprelin 1-dən başlayıb. Bu günə qədər hərbçi olmağa maraq göstərən yüzlərlə gənc artıq qeydiyyatdan keçib. Müşahidələr onu göstərir ki, bu il hərbi təhsil ocağına sənəd verənlərin sayı ötən illərə nisbətən xeyli artıb. İnanıram ki, sevgi və istəklə hərbi məktəblərə üz tutan gənclər bir neçə ildən sonra ordumuzun peşəkar zabitləri olacaqlar.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

## Azərbaycanın və Rusiyanın hərbi mütəxəssisləri arasında kimyəvi, bioloji və radioloji müdafiə üzrə işçi görüşü keçirilib

Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Rusiya Federasiyası Müdafiə Nazirliyi arasında 2017-ci il üçün ikitərəfli əməkdaşlıq planına əsasən, Silahlı Qüvvələrin Hərbi Akademiyasında kimyəvi, bioloji və radioloji müdafiə üzrə mütəxəssislərin işçi görüşü keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə hər iki dövlətin hərbi qurumlarının kimyəvi, bioloji və radioloji müdafiə sahəsində əldə etdikləri təcrübə müzakirə olunub, bu sahədə elmi mübadilənin aparılmasının vacibliyi vurğulanıb.

# "Şahin" hərbi-idman oyunu

Tərtər rayonundakı "N" hərbi hissəsində yuxarı sinif şagirdləri arasında keçirilən "Şahin" hərbi-idman oyununun zona birinciliyində Ağcabədi və Bərdə komandaları uğurla çıxış edərək, yarışların final mərhələsinə vəsiqə qazanıblar.

AZƏRTAC xəbər verir ki, zona yarışında Naftalan, Yevlax, Bərdə, Goranboy, Ağcabədi, Ağdam, Xocalı, Şəmkir şəhər və rayonlarını təmsil edən 8 komanda mübarizə aparıb. Əvvəlcə respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Yarışların rəsmi açılış mərasimində Tərtər rayon İcra Hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsi müdiri-



nin müavini Elvin Umudov, Gənclər və İdman İdarəsinin rəisi Emin Pənahov, "N" hərbi hissəsinin komandir müavini Anar Cavadov çıxış edərək, hər il keçirilən "Şahin" hərbi-idman oyununun yeniyetmə və gənclərin hərbi vətənpərvərlik tərbiyəsi işinin daha da gücləndirilməsində, orta məktəb şagirdlərinin ordu sıralarına xidmətə hazırlanmasında əhəmiyyətini yüksək qiymətləndiriblər.

Gənc şahinlər qarşısında hərbi hissənin xüsusi təyinatlı bölüyünün nümunəvi çıxışı nümayiş etdirilib. Sonra yarışlara start verilib.

Hərbi-idman oyununda komandalar sıra hazırlığı, avtomat darağının doldurulması və boşaldılması, avtomatın sökülməsi və yığılması, tüfəngdən hədəfə atəş açılması, fiziki hazırlıq, manevrlərin dəf olunması, mülki müdafiə hazırlığı kimi mərhələlərdə qüvvələrini sınayıblar.

Zona mərhələsinin qalibi Ağcabədi və ikinci yerin sahibi Bərdə komandaları "Şahin" hərbi-idman oyununun mayın əvvəllərində Bakıda keçiriləcək final mərhələsində iştirak etmək hüququ qazanıblar.

# Xəbərlər: hadisələr, faktlar

## Əfqanıstanda "Taliban" ilə İŞİD arasında toqquşmalarda 91 yaraqlı ölüb



Əfqanıstanın şimalında "Taliban" hərəkatı ilə İŞİD qruplaşması arasında baş verən toqquşmalarda azı 91 yaraqlı ölüb.

Silahlı toqquşmalar aprelin 25-də Cauzcan əyalətində başlayıb və hazırda da davam edir. Ölənlər arasında "Taliban" hərəkatının 76, İŞİD qruplaşmasının isə 15 yaraqlısı var.

2014-cü ildə Amerika hərbi kontingenti Əfqanıstanı tərk etdikdən sonra ölkədə gərginlik artmağa başlayıb və cənub rayonlarının bir çoxu "Taliban" hərəkatının nəzarətinə keçib. Bir müddətdir ki, yaraqlılar böyük şəhərlər istiqamətində hücumlarını davam etdirir. Həmçinin regionda İŞİD qruplaşmasının da təsir dairəsi artmaqdadır.

## ABŞ Hərbi Hava Qüvvələri ballistik raketi sınaqdan keçirəcək



ABŞ Hərbi Hava Qüvvələri Mərkəzi Kaliforniya sahillərindəki Vandenberq bazasında "Minuteman III" qitələrarası ballistik raketinin sınağını keçirəcək.

Sınaq raketin effektivliyini, dəqiqliyini və hazırlığını yoxlamaq məqsədi daşıyır.

Vandenberq bazasının rəisi, polkovnik Kris Moss bildirib ki, raketin sınaqdan keçirilməsi ölkənin milli nüvə qüvvələrinin gücünü yoxlamaq və milli nüvə imkanlarımızı göstərmək üçün çox vacibdir. ABŞ-da fəaliyyət göstərən Nüvə Dövrü Sülh Fondu qeyri-hökumət təşkilatı raketin sınaqdan keçirilməsi qərarını tənqid edərək, bunun Birləşmiş Ştatlarla Şimali Koreya arasında gərginliyi daha da artıracağını bildirib.

Xatırladaq ki, bir neçə həftə əvvəl Şimali Koreya da ballistik raketlərin sınağını keçirmişdi.

## Çin öz istehsalı olan ilk təyyarədaşıyan gəmini suya buraxıb



Çin tamamilə milli layihə ilə hazırlanan ilk təyyarədaşıyan gəmini Dalyan limanında suya endirib. Yerli KİV-lər tikintisi 2013-cü ilin noyabrında başlayan "Type 001A" gəmisinin son hazırlıq və sınaqlardan sonra 2020-ci ildə silahlı qüvvələrin arsenalına qəbul ediləcəyini yazır.

Yeni gəminin uzunluğu 315 metr, eni 75 metrdir. Təyyarədaşıyan saatda 60 kilometrə yaxın sürətlə hərəkət edə bilir. Onun göyərtəsində 36 ədəd "Szyan-15" qırıcı təyyarəsi yerləşəcək.

Hazırda Çinin Hərbi Dəniz Qüvvələrinin arsenalında "Lyaonin" adlı bir təyyarədaşıyan gəmi var. O, 90-cı illərin sonlarında Ukraynadan alınan "Varyaq" aviadaşıyıcı kreyserin bazasında hazırlanıb. "Type 001A" təyyarədaşıyanı "Lyaonin"in prinsipinə uyğun, lakin ölçüsünə görə bir qədər böyük və bir sıra modifikasiyalarla tikilib.

## Türkiyə Sahil Mühafizə Xidməti Rusiya gəmisinin heyətini xilas edib



Rusiya Qara Dəniz Donanmasına məxsus "Liman" tədqiqat gəmisi Bosfor körfəzi yaxınlığında Toqo bayrağı altında üzən "Yozuzarsif-N" yük gəmisi ilə toqquşub. Qəza nəticəsində "Liman" gəmisi zədələnib. Son məlumata görə, "Liman" tədqiqat gəmisi batıb.

Rusiya gəmisində olan 78 gəmiçinin hamısı təxliyə olunub. Ölən və yaralanan yoxdur. Yük gəmisi zədələnməyib və onun heyəti yardım barədə müraciət etməyib. Gəmilərin toqquşması Bosfor körfəzinə girişdə, Kilos burnu yaxınlığında baş verib. Qəzaya qatı dumanın səbəb olduğu bildirilir.

**AZƏRTAC-ın materialları əsasında**

*Asudə vaxt*

# Diqqət də var, qayğı da...

*Bu gün Azərbaycan Silahlı Qüvvələri regionun ən güclü ordusuna çevrilib. Fəxrlə deyə bilərik ki, Silahlı Qüvvələrimiz gündən-günə hərbi qüdrətini artıraraq bizə düşmən kəsilənləri qorxuya salıb. Ordunun maddi-texniki təminatı ilbəil təkmilləşdirilir, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırılır. Dövlətimizin qayğısını daim öz üzərində hiss edən əsgər və zabitlərimiz torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanırlar.*



Son illər ölkəmizin etibarlı müdafiə təminatı ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində müasir hərbi hissə və şəhərciklər tikilərək istifadəyə verilib. Təmas xəttində, mürəkkəb relyef şəraitində yerləşən hissə və bölmələrdə möhkəm müdafiə potensialı yaradılıb.

"N" hərbi hissəsində müasir tələblərə cavab verən əsgər yataqxanası ilə tanış olduq. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına cavabdeh zabit Vüqar Hüseynova görə, ölkəmizdə əsgər adına verilən yüksək qiymət döyüşçülərimizin daha yaxşı xidmət etmələri üçün yaradılan hərtərəfli şəraitdən bəllidir. "İndi əsgərlərimiz ən müasir yataqxanalarda yaşayır, Vətənimizi göz bəbəyi kimi qoruyurlar".

Zabit bizə məlumat verdi ki, yeni əsgər yataqxanası müasir tələblər səviyyəsində tikilib. Burada istirahət və yataq yerləri, zabitlər üçün iş otaqları, əsgərlər üçün məişət, silah, ideoloji və idman otaqları mövcuddur.

Şəraitlə daha da yaxından tanış olmaq üçün yataqxanaya daxil oluruq. İdeoloji otağa göz gəzdirdikdə əsgərlərin qəzet və jurnalları mütaliə etmələrinə şahid oluruq.

"Azərbaycan Ordusu" qəzetinin yeni nömrəsini oxuyan əsgərimiz diqqətimi çəkdi. Yaxınlaşıb onunla həmsöhbət oldum. Əsgər Etibar Zeynalov artıq 4 aydır xidmət edir. O, burada yaradılmış şəraitdən razılıqla danışdı. "Bizimçün hər bir şərait yaradılıb. İstər yeməkxana, istər də yataqxanamız müasir tələblərə uyğun tikilib. Asudə vaxtlarımızda qəzet, jurnal, kitablar oxuyur, televizorda verilişlərə baxırıq. Ordu rəhbərliyinin, komandanlığın bizə göstərdiyi diqqət və qayğı üçün hamımız minnətdarıq".

Söhbətimiz zamanı Etibar bildirdi ki, qardaşı Nicat Zeynalov "N" hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət edir. Həm də aprel döyüşlərində iştirak edib. Qardaşı ona aprel döyüşlərində qazandıqları qələbədən fəxrlə, qürurla danışıb. "Qardaşım həmişə deyir ki, həyatda heç nədən qorxmadığımız kimi, xidmətdə də düşmən gülləsinə tuş gəlməkdən qorxmamalıyıq. Çünki hamı Vətən üçün yaşamalı, Vətən üçün də ölməlidir. Əgər Vətən yaşayırsa, onda sən də yaşayırsan".

Sonra idman otağına daxil oluruq. Döyüşçülərimiz asudə vaxtlarında fiziki vərdişlərini artırmağa da imkan tapırlar. Kimisi çəki daşlarını başının üstünə qaldırır, kimisi də əzələlərin gərilməsi hərəkətini edir. Hərəkətlərin çevikliyindən də görünür ki, döyüş hazırlığı ilə yanaşı, şəxsi heyətin fiziki hazırlığı da yüksək səviyyədədir. Onlarla tanış oluruq.



Əsgər Kamal İsmayılzadə Sumqayıt şəhərindən hərbi xidmətə çağırılıb. 4 aydır xidmət edən döyüşçü uşaqlıqdan idmana həvəsi olduğunu bildirdi. "Hərbi xidmətdən əvvəl qaydasız döyüşlə məşğul idim. Burada da yaradılmış şəraitdən istifadə edərək fiziki hazırlığımı bir az da təkmilləşdirirəm. Dərslərdə bilik və bacarığımızı artırdığımız kimi, boş vaxtlarımızda fiziki hazırlıq vərdişlərimizi də möhkəmləndiririk. Çünki döyüş meydanında düşmənə qalib gəlmək üçün cəld və çevik olmaq lazımdır".

Asudə vaxtlarında əsgər yoldaşlarının saç düzümünü səliqəyə salan bərbərlə də tanış olmağa imkan tapdıq. Əsgər Adəm Qəribov gənc əsgərlərdən biridir. Bölmədə hamı ona hörmət edir. Çünki o, öz işinin həvəskarıdır. Məişət otağında əsgər yoldaşının saç düzümünü səliqəyə salan Adəm bildirdi ki, xidmətdən öncə bərbər işləyib.

Burada yaradılan yüksək səviyyəli xidmət şəraiti şəxsi heyətin mənəvi-psixoloji hazırlığına öz müsbət təsirini göstərməkdədir. Həmçinin keçirilən təlimlərdə tər tökərək daha da bərkiyən əsgərlərimiz döyüşlərə hazırdırlar. Mənimlə həmsöhbət olan əsgərlər Şikar Ağayev, Novruz Zərbalıyev və başqaları da təsdiqlədilər ki, yaradılmış hər bir şərait onların rahatlığına hesablanıb. "Ona görə də xidmətimiz yüksək səviyyədə qurulub. Özümüzü evdəki kimi hiss edirik. Doğma qəzetimiz vasitəsilə valideynlərimizə salam göndərərək deyirik ki, bizdən nigaran qalmayın, çünki dövlətimiz bizə diqqət və qayğısını əsirgəmir."

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Hərbi ənənələr, yeniliklər*

# Tankəleyhinə 100 mm-lik MT-12 topu

Keçmiş Sovet ittifaqının istehsalı olan tankəleyhinə yedəkli, hamar lüləli 100 mm-lik MT-12 topu 1960-cı ilin sonunda Viktor Afanasyev tərəfindən Yurpin maşınqayırma zavodunda hazırlanıb. Bəzi mənbələrdə onu "Rapira" adlandırırlar. Seriyalarla istehsalı 1970-ci ildən başlanıb. Gündüz vaxtlarında topdan düz tuşlama ilə atəş açmaq üçün optik nişangahdan, gizli mövqelərdən atəş açmaq üçün isə panoramlı mexaniki nişangahdan və kollimatordan istifadə edilir.

Panoramlı nişangah üfiqi və şaquli səthlərdə dəqiq tuşlanma üçün vacibdir. Kollimator optik cihazdır ki, tuşlama zamanı təbii nöqtələrin görünməməsində, dumanlı, qarlı havada və atəş mövqelərinin tüstülənməsi hallarında istifadə edilir.

Nişangah ləvazimatlarını işıqlandırmaq üçün topda işıqlandırma cihazları da quraşdırılıb. Top yedəkli tırtıllı dartıcı



Ural avtomobili və yük avtomobili ilə daşınır. Qarın üzərində hərəkət etmək üçün MT-12 topunda xizək qurğusu da bərkidilib. Döyüş sursatlarına gəldikdə isə topda kalibrаltı, kumulyativ və qəlpə-fuqas mərmilərindən, tankəleyhinə idarəolunan "Kaset" raketindən istifadə olunur. Hədəfləri, zirehli texnikaları məhv etmək üçün müxtəlif təyinatlı zirehdeşən mərmi və qurğulardan, o cümlədən inert mərmilərindən də (təlim və təcrübə) istifadə olunur. MT-12 topunun heyəti 6-7 nəfərdən ibarətdir. Çəkisi 3100 kiloqram, şose yolda daşınması saatda 60 kilometr, uzunluğu 9650 mm, lüləsinin uzunluğu 6300 mm, eni 2320 mm, hündürlüyü 1600-2600 mm-dir, dəqiqədə 6-14 atəş açır. Müxtəlif mərmilərdən istifadə etməklə müxtəlif uzaqlığa qədər atəş açır. MT-12 topunun müxtəlif seriyaları da mövcuddur.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

*Yeni kitablar*

# “Ordu həmkarları yarım əsrin zirvəsində”



Bu yaxınlarda "Azərbaycan Ordusu" qəzetinin əməkdaşı Əbülfət Qasımovun Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin 50 illik yubileyi ərəfəsində təşkilatın yaranması və inkişafını əks etdirən nəfis tərtibatlı "Ordu həmkarları yarım əsrin zirvəsində" kitabı işıq üzü görüb.

Kitabda Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin yaranmasından, ümummilli lider Heydər Əliyevin Azərbaycanda həmkarlar hərəkatına qayğısından, BHİK-in 50 illik fəaliyyətindən - işçilərin sosial hüquqlarının keşiyində dayanmasından, ordu ilə sıx təmasından, mədəni-kütləvi tədbirlər keçirməsindən bəhs edilib.

Kitabda Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin fəaliyyəti, Silahlı Qüvvələrin mülki qulluqçularının sosial-iqtisadi hüquqlarının müdafiəsinin təmin edilməsində həmkarların fəal dəstəyi qeyd edilib. Həmkarlar İttifaqı Komitəsinin cəmiyyətdəki rolu, mövqeyi, ictimai birliklərlə əlaqələri və digər məsələlərə aydınlıq gətirən müəllif təşkilatın fəaliyyətini müasir tələblər səviyyəsində tənzimləyən mövcud qanunvericiliyə də toxunub.

Oxucular bu dəyərli kitab vasitəsilə BHİK-in əsas fəaliyyət istiqamətləri - idarəetmənin, mədəni-kütləvi tədbirlərin təşkili və əlaqələndirilməsi, əmək hüququ və aztəminatlı ailələrin müdafiəsi, maddi yardımın təşkili barədə ətraflı məlumat ala biləcəklər.

**"Azərbaycan Ordusu"**

Polkovnik Rəcəbov Valeh Yasin oğluna 1997-ci ildə verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 151
Nüsxə 4650